

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 193 (23.104)

11 oktyabr 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 10 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları da vardır.

**Hacıyev Qaməddin Abbasqulu oğlu**

**Qasımov Akif Mustafa oğlu**

**Məmmədov Xalid Əbil oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında uşaqların sağlamlığının qorunması sahəsində görülən işlərin həcminin və keyfiyyətinin artırılması məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və icra barədə ildə bir dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 oktyabr 2018-ci il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı

### 1. Giriş

Son illər ərzində Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində uşaqların sağlamlığının qorunması ilə bağlı həyata keçirilən tədbirlərin nəticəsi olaraq uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm addımlar atılmışdır. Həyata keçirilən tədbirlər uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanları məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına imkan vermişdir.

Hər il muxtar respublikada uşaq əhalisi tibbi müayinədən keçirilmiş, aparılan müayinələr nəticəsində xəstəlik aşkar edilmiş uşaqlar dispanser qeydiyyatına alınmış, onların arasında müalicə-sağlamlaşdırıcı tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında uşaqların sağlamlığının qorunması sahəsində aparılan tədbirlərin davamı olaraq Dövlət Proqramı uşaq xəstəliklərinin erkən aşkar edilməsinə, uşaqlar arasında yayılan patologiyaların profilaktikasına, uşaqların sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına, dispanserizasiyanın nəticələrinin təhlili əsasında vaxtında müalicə-sağlamlaşdırıcı tədbirlərin görülməsinə, uşaq ölümünün azaldılmasına, uşaqların icbari dispanserizasiyasını həyata keçirən dövlət tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, laborator müayinələri aparmaq üçün diaqnostik avadanlıqlarla və reaktivlərlə təchiz edilməsinə, kadrların təkmilləşdirilməsinə yönəldilmiş tədbirlərin daha geniş miqyasda həyata keçirilməsini və əhali arasında maarifləndirmə işlərinin səmərəliliyinin artırılmasını nəzərdə tutur.

### 2. Dövlət Proqramının məqsədi

2.1. Dövlət Proqramının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə, onların arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir.

2.2. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

2.2.1. tibbi müayinələr vasitəsilə uşaqlarda xəstəliklərin və onların risk amillərinin erkən mərhələdə aşkar edilməsi və sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi;

2.2.2. dispanserizasiya tədbirləri çərçivəsində aparılan profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərin qeydiyyat sisteminin təkmilləşdirilməsi;

2.2.3. uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidmətində çalışan tibb işçilərinin bilik və bacarıq səviyyəsinin yüksəldilməsi;

2.2.4. uşaqların dispanserizasiyasını həyata keçirən tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, onların müasir tibbi texnika və avadanlıqlarla təchizatının yaxşılaşdırılması;

2.2.5. uşaqlar və valideynlər arasında xəstəliklərin profilaktikası məqsədi ilə aparılan maarifləndirmə işinin gücləndirilməsi.

### 3. Dövlət Proqramının maliyyələşdirilməsi

3.1. Dövlət Proqramının icrası üçün tələb olunan xərclərin maliyyələşdirilməsi müvafiq illər üzrə Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində "Səhiyyə" bölməsi üzrə nəzərdə tutulmuş vəsait dairəsində həyata keçirilir.

### 4. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr

4.1. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

4.1.1. uşaqlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi;

4.1.2. uşaqların sağlamlıq vəziyyətinin yaxşılaşdırılması;

4.1.3. dispanserizasiyanın nəticələrinin təhlili əsasında vaxtında müalicə-sağlamlaşdırıcı tədbirlərin görülməsi;

4.1.4. uşaq ölümünün azaldılması;

4.1.5. uşaqların sağlam həyat tərzi istiqamətində maarifləndirilməsi;

4.1.6. uşaqların dispanserizasiyasının əhəmiyyəti barədə əhalinin məlumatlandırılması.

### 5. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirlər | İcraçı orqanlar | İcra müddəti |
|---|---|---|---|
| **5.1. Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | |
| 5.1.1. | İcbari dispanserizasiya ilə əhatə olunmalı və dispanserizasiya ilə əhatə olunmuş uşaqların qeydiyyatının aparılması | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.1.2. | Dispanserizasiya zamanı aparılmış müayinə və müalicə-sağlamlaşdırıcı tədbirlərin elektron qeydiyyatının aparılması | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.1.3. | Dispanserizasiya ilə əhatə olunan uşaqların registrinin təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi | 2018-2019 |
| **5.2. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | |
| 5.2.1. | Uşaqlara tibbi xidmətlər göstərən ilkin səhiyyə müəssisələrinin lazımi avadanlıq, laborator və tibbi ləvazimatlarla, eləcə də kompüter texnikası ilə davamlı təchiz edilməsi | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.2.2. | Tibbi müayinələrin aparılması üçün fəaliyyət göstərən tibb məntəqələrinin müvafiq avadanlıqlarla təchiz edilməsi | Səhiyyə Nazirliyi | 2018-2022 |
| **5.3. Uşaqlar arasında yayılan xəstəliklərin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | |
| 5.3.1. | Uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi və qiymətləndirilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.3.2. | Uşaqlarda təcili və təxirəsalınmaz vəziyyətlərin yaranmasına səbəb olan (ürək-damar, tənəffüs çatışmazlıqları və s.) xəstəliklər üzrə metodik sənədlərin və müalicə-diaqnostika alqoritmlərinin işlənilib hazırlanması | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.3.3. | Sağlamlıq imkanları məhdud uşaqlar üçün bərpa müalicəsinin təşkili və onların sanatoriya göndərişləri ilə təmin edilməsi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2018-2022 |
| 5.3.4. | Uşaqlara göstərilən tibbi xidmətin həcminin və keyfiyyət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.3.5. | Çətin həyat şəraitində olan xəstə və xəstələnmə riski olan uşaqların sosial xidmət müəssisələrinə yerləşdirilməsi və müalicəsinin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.3.6. | Dispanserizasiya məqsədi ilə aparılan tibbi müayinələr zamanı aşkar edilən xəstə uşaqların ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.3.7. | Qurd invaziyasına görə məktəbəqədər təhsil müəssisələrində və məktəblərdə uşaqların vaxtaşırı ambulator müayinəyə və müalicəyə cəlb edilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi | 2018-2022 |
| 5.3.8. | Uşaqların inkişafının monitorinqi üzrə metodik tövsiyələrin ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri tərəfindən tətbiq edilməsinin təşkili | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.3.9. | Yeniyetmələrin psixonevroloji və psixoloji skrininqlərinin (dispanserizasiya) aparılması | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi | 2018-2020 |
| **5.4. Kadr hazırlığı** | | | |
| 5.4.1. | Uşaqlar arasında nadir hallarda rast gələnən xəstəliklər barədə həkimlər və orta tibb işçiləri üçün seminarların və treninqlərin təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.4.2. | Uşaqlar arasında xəstəliklərin profilaktikası və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlıq (o cümlədən yerli mütəxəssislərin xaricdə təlim keçməsi) | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.4.3. | Uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçilərinin hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə müasir tibbi təhsil proqramlarının tətbiqi | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.4.4. | Uşaqlarda inkişaf pozuntularının erkən aşkarlanması və erkən müdaxilə sahəsində həkimlər və orta tibb işçiləri üçün seminarların və treninqlərin təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2018-2022 |
| **5.5. İcbari dispanserizasiya sahəsində maarifləndirmə** | | | |
| 5.5.1. | İcbari dispanserizasiyanın uşaqların sağlamlığının qorunmasında roluna dair videomaterialların hazırlanması, bukletlərin, plakatların və digər əyani vəsaitlərin çap etdirilməsi | Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.5.2. | Təhsil müəssisələrində təhsilalanlar arasında dispanserizasiyanın mahiyyəti barədə maarifləndirmə işinin aparılması | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | 2018-2022 |
| 5.5.3. | Uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədi ilə əhali arasında xəstəliklərin risk amillərinə dair müvafiq mövzular üzrə maarifləndirmə işinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi | 2018-2022 |
| 5.5.4. | Dispanserizasiya məqsədi ilə müayinələr aparılan zaman uşaqlar və valideynlər arasında sağlam həyat tərzi, xəstəliklərin risk amilləri və xəstəliklərin erkən simptomları üzrə maarifləndirmə materiallarının yayılması | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi | 2018-2020 |

## Yanğın təhlükəsizliyi orqanlarının yaradılmasının 100 illiyi qeyd edilib

*Oktyabrın 10-da Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində Yanğın təhlükəsizliyi orqanlarının yaradılmasının 100 illiyi və yanğınsöndürənlərin peşə bayramı münasibətilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov yanğın təhlükəsizliyi orqanlarının yaranmasının 100-cü ildönümü münasibətilə kollektivi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından təbrik edib.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin 2002-ci il 5 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 10-u yanğınsöndürənlərin peşə bayramı kimi qeyd edilir. 100 il bundan əvvəl yaranan yanğın təhlükəsizliyi orqanları mühüm inkişaf yolu keçib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə digər hüquq-mühafizə orqanları kimi, fövqəladə hallar orqanlarının da inkişafı təmin edilib və fəaliyyətlərinin müasirləşdirilməsi üçün tədbirlər görülüb. Yanğın təhlükəsizliyi orqanları da muxtar respublikada diqqət və qayğı ilə əhatə olunub, görülən məqsədyönlü tədbirlər



nəticəsində yanğından mühafizə sistemi təkmilləşdirilib, maddi-texniki baza, təminat və təchizat gücləndirilib, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi idarə statusu alıb, onun yerli qurumlarının səlahiyyətləri artırılıb, bu orqanın normal fəaliyyət göstərməsi üçün mövcud inzibati binalar əsaslı təmir edilib, yeni inzibati binalar və texniki qarajlar tikilərək istifadəyə verilib. Hazırda müasir yanğınsöndürmə avtomobilləri və radiostansiyalarla təmin olunmuş yanğın təhlükəsizliyi orqanları ixtisaslı kadrlarla da komplektləşdirilib. Yanğın təhlükəsizliyi orqanları yanğınların qarşısının alınması və söndürülməsi ilə yanaşı, yol-nəqliyyat qəzalarının nəticələrinin aradan qaldırılmasında və xilasetmə işlərinin aparılmasında da iştirak edirlər.

Cəlil Rüstəmov deyib ki, yanğın təhlükəsizliyi orqanlarının əldə etdiyi nailiyyətlər və yanğınsöndürənlərin əməyi daim diqqət mərkəzində saxlanılıb və qiymətləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə yanğın təhlükəsizliyi orqanları əməkdaşlarının bir qrupunun təltif olunması muxtar respublika rəhbəri tərəfindən bu orqanın fəaliyyətinə göstərilən diqqətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev çıxış edərək demişdir ki, ötən 100 ildə yanğınsöndürənlərimiz öz peşəkarlıq və fədakarlıqları ilə daim seçilib, insanların həyatının və əmlakının, xalqın sərvətinin yanğın kimi fəlakətlərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyiblər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə yanğından mühafizə xidmətinin maddi-texniki və normativ-hüquqi bazasının genişləndirilməsi, kadr ehtiyatının yaradılması, şəxsi heyətin peşə hazırlığının artırılması kimi vacib məsələlər öz həllini tapıb, "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub.

Bu gün muxtar respublikada yanğından mühafizə xidməti günün tələbləri səviyyəsində qurulub. 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajı əsaslı təmir edilib, 2009-2015-ci illərdə isə Kəngərli, Şahbuz, Ordubad, Şərur, Babək və Sədərək rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar və texniki qarajlar tikilərək şəxsi heyətin istifadəsinə verilib. Yanğın təhlükəsizliyi orqanlarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə son illərdə ən müasir yanğınsöndürmə avtomobilləri, nəfəs aparatları, kompressorlar, istiliyədavamlı xüsusi döyüş paltarları, xilasedici kəndirlər, su nasosları, müxtəlif diametrli yanğın şlanqları, avadanlıqlar, cihaz və əşyalar, bütün şəxsi heyət üçün gündəlik və səhra geyim formaları alınıb. Həmçinin yanğın təhlükəsizliyi orqanlarında ixtisaslı kadrların hazırlanması istiqamətində də tədbirlər görülüb. Belə ki, 117 nəfər Azərbaycan, Ukrayna və Belarus respublikalarının akademiyalarına, Bakı Yanğın Texniki Məktəbinə təhsil almağa göndərilib. Onlardan çoxu təhsillərini başa vuraraq bu gün Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarında xidmətlərini davam etdirirlər. Şamı Abdullayev göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə kollektiv adından minnətdarlığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasında yanğın təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətinə görə təltif olunmuş əməkdaşlara "Rəşadətli əməyə görə" nişanları təqdim olunub. Həmçinin bir qrup əməkdaşa yeni rütbələr və fəxri fərmanlar verilib.

**"Şərq qapısı"**

## Fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır

*Muxtar respublikada fövqəladə hallara hazırlıq sahəsində qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunur. Belə ki, bu ilin ötən dövründə yanğın təhlükəsizliyi şöbələri tərəfindən 12 taktiki-xüsusi təlim keçirilmişdir.*

Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicilər taktiki-xüsusi təlimə cəlb olunmuş, 9 obyektdə şərti baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üzrə taktiki-xüsusi təlimlər keçirilmişdir.

Fövqəladə hallar zamanı fəaliyyəti zəruri olan 122 müəssisə və təşkilatın fövqəladə hallara hazırlığı yoxlanılmışdır. Bundan başqa, 169 ümumtəhsil məktəbində, 14 uşaq bağçasında və 166 digər obyektdə mülki müdafiə işinin təşkili vəziyyəti, 17 tibb müəssisəsində ixtisaslaşdırılmış həkim yardım briqadalarının hazırlığı yoxlanılaraq müvafiq tədbirlər görülmüşdür. 2 mərkəzi icra hakimiyyəti orqanının, 1 sahibkarlıq subyektinin və 3 xəstəxananın fövqəladə hallarda fəaliyyət planları işlənib hazırlanmışdır. Həmçinin əhalinin fövqəladə hadisələrdən qorunma qaydaları ilə bağlı 160 obyektdə 4276 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir.

Texniki təhlükəsizliyin təmin olunması, hadisələrin vaxtında qarşısının alınması məqsədilə 22 müəssisədə 229 təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılmışdır. 37 təhlükə potensiallı müəssisədə isə maarifləndirici söhbətlər aparılmışdır. 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar 335 qazanxanada yoxlamalar, yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 3251 obyektdə və 4175 mənzildə yanğın-texniki müayinələr aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Fərqlənən şirkətlər *"Biznesdə uğur"* mükafatına layiq görülüb

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində keçirilən tədbirdə "Biznesdə uğur – 2017" nominasiyası üzrə qalib gələn sahibkarlara mükafatlar təqdim edilib.

Belə ki, "Biznesdə uğur – 2017" nominasiyası üzrə "Nəqşicahan Holdinq Şirkətlər Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin Karbon Qazı Zavodu "İlin məhsulu", "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı "İlin şirkəti", "Sumqala Tikinti Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti "İlin sahibkarı", "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti "İlin ixracatçısı", "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti "İlin yerli məhsul alıcısı" nominasiyalarına layiq görülüblər.

Qeyd edək ki, "Biznesdə uğur" mükafatı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə sahibkarların fəaliyyətinin qiymətləndirilməsi üçün 2009-cu ildə təsis edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək bildirib ki, iqtisadiyyatın müxtəlif sahələrində fərqləndirici mükafat sayılan "Biznesdə uğur" hər il özəl sektorda fəaliyyət göstərən iş adamlarına, biznes və sahibkarlığın inkişafında yüksək nailiyyətlər əldə edən şirkətlərə verilir. İqtisadi cəhətdən 2017-ci ildə də onlar uğurlu fəaliyyətləri ilə öz sahələrində lider olduqlarını sübut ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Sahibkarlar Konfederasiyasının nümayəndəsi, "Nəqşicahan Holdinq Şirkətlər Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi və "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinin sahibkarı çıxış edərək dövlətin sahibkarlığın inkişafına göstərdiyi qayğını yüksək qiymətləndiriblər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada vergi borcu qeydə alınmayıb

Gəlirin, mənfəətin, torpağın, əmlakın, təqdim edilmiş malların, ticarət əlavəsinin və xərclərin uçotunun hüquqi və fiziki şəxslər tərəfindən müstəqil aparılması, vergilərin sərbəst hesablanması və vaxtında büdcəyə ödənilməsi, bəyannamələrin təqdim edilməsi vergi qanunvericiliyinə könüllü əməletmə kimi mühüm əhəmiyyət kəsb edir. Bu, həm də yüksək vergi mədəniyyətinin formalaşmasından xəbər verir.

Son illər muxtar respublikada bu sahədə ardıcıl tədbirlər görülüb, maarifləndirmə işlərinin əhatə dairəsi genişləndirilib. Vergiödəyiciləri ilə görüşlərdə vergi qanunvericiliyinə könüllü əməletmənin üstünlükləri barədə söhbətlərin aparılması öz bəhrəsini verir. Belə ki, bu ilin ötən 9 ayında vergiödəyiciləri tərəfindən hesablanmış vergilər vaxtında və tam ödənilib, nəticədə, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi tərəfindən heç bir vergi borcu qeydə alınmayıb.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

## Şərur rayonunun yeni quruculuq ünvanları

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda cari ildə də tikinti-quruculuq tədbirləri sürətlə davam etdirilir. Kərimbəyli kəndindəki tam orta məktəb binası əsaslı şəkildə yenidən qurulur. 270 şagird yerlik məktəb binası zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət olacaqdır.

Artıq obyektin bütün mərtəbələrində beton-qəlib işləri, arakəsmələrin hörgüsü başa çatdırılmışdır. Hazırda suvaq işləri aparılır, elektrik, istilik, su və rabitə xətləri də çəkilir. Fasad hissə rütubətdən qorunmaq üçün xüsusi inşaat materialı ilə izolyasiya olunur.

Obyektdə "Gəmiqaya Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin kifayət qədər mühəndis-texniki işçisi, fəhlə və quraşdırıcısı çalışır. Onlar inşaat sektoru üçün nəzərdə tutulan geyim və avadanlıqlarla təmin olunublar.

Onu da qeyd edək ki, ötən aylarda Şərur şəhərinin Heydər Əliyev prospektindəki 7 nömrəli, 40 mənzilli beşmərtəbəli yaşayış binası əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilib. Həmin ünvanda olan 9 nömrəli, 24 mənzilli üçmərtəbəli yaşayış binasının da əsaslı təmirinə başlanıb.

Binaya yeni dam örtüyü vurulacaq, qapı və pəncərələr təzələnəcək, eyvanların məhəccərləri dəyişdiriləcək.

Təmir çərçivəsində binaya daxil olan qaz, su, istilik, elektrik və rabitə xətləri də dəyişdiriləcək, girişlərdə hər mərtəbə üçün ayrıca paylayıcı elektrik şitləri və sayğaclar qoyulacaqdır.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Əmək yarmarkasına 137 iş yeri çıxarılıb

Kəngərli rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov açaraq bildirib ki, muxtar respublikamızda həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır. Bu sahədə həyata keçirilən tədbirlər sakinlər tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlərin nəticəsidir ki, son illər yüzlərlə vətəndaşımız yeni iş yerləri ilə təmin olunub, onların maddi rifah halı və sosial vəziyyəti daha da yaxşılaşdırılıb.

Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Hacıəddin Mehbalıyev çıxış edərək deyib ki, muxtar respublikamızda işaxtaran vətəndaşların, xüsusilə də gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunmaları məqsədilə bir sıra aktiv məşğulluq tədbirləri həyata keçirilir. Bu tədbirlər içərisində əmək yarmarkaları öz əhəmiyyəti ilə seçilir.

Qeyd olunub ki, Kəngərli rayonunda da təşkil edilən əmək yarmarkaları əhalinin məşğulluğunun gücləndirilməsində, işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılmasında və məşğulluq orqanlarının fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə keçirilmiş tədbirlərin təhlili göstərir ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

Vurğulanıb ki, Kəngərli rayonunda da əhalinin məşğulluğu və maddi rifah halının yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Yeni yaradılan sənaye və istehsal müəssisələri, aqrar sahənin inkişafı, tikinti-quruculuq işlərinin həcminin artması, xidmət şəbəkələrinin genişləndirilməsi işaxtaran vətəndaşların işlə təmin olunmasına geniş imkanlar açıb.

Əmək yarmarkasına 10-u dövlət və 6-sı özəl müəssisələrdən olmaqla, 137 boş iş yeri çıxarılıb. Yarmarkanın gedişi zamanı 23 nəfərə işə qəbul olunmaq üçün göndəriş verilib.

**Babək İSMAYILOV**

Yurdumuzun nemətləri

# Badamlının badam barı

***B**u iki nemət – sayı-hesabı olmayan badam ağacları, bir də Ulu Yaradanın möcüzəsi olan "Badamlı" suyu Şahbuz rayonunun Badamlı kəndinin adını nəinki muxtar respublikada, bütün ölkəmizdə məşhurlaşdırıb. Barı-bərəkəti, bir də bənzərsiz mənzərələri ilə fəsillər gözəli olan payızın bu günlərində yolumuzu həmin kənddən salırıq. İndi o vaxtdır ki, kəndlinin aylarla gözlədiyi an gəlib yetişib. Həmişəki kimi, bu il də ağacların barına planını qurub, məhsulundan gələn gəliri ailəsinin bir dərdi-sərinə xərcləyəcəyini müəyyənləşdirən kəndlilər badam, cəviz çırpır, qabıqdan çıxarır, bir yerə toplayır, sərir, qurudur, satışa hazırlayırlar. Məqsədimiz də elə təbiətin səxavətindən hər birinin taleyinə pay düşən, ruziləri qapılarındaca nəsibləri olan badamlılılarla görüşüb onlarla respublikamızın çox az sayda yaşayış məskənində bitən bu qiymətli bitki, onun növləri, faydaları barədə söhbətləşmək idi.*



Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi muxtar respublikada bu sahələrin inkişaf etdirilməsində yeni mərhələnin başlanmasına şərait yaradıb. 2012-2015-ci illəri əhatə edən proqramda olduğu kimi, bu dövlət proqramının da icrası minlərlə hektar sahədə meyvə bağlarının salınması ilə nəticələnib. Belə bağlar arasında muxtar respublikamızın iqlim xüsusiyyətləri nəzərə alınaraq əkilən qərzəkli meyvələrdən olan badam üstünlük təşkil edir. Dövlət başçısı cənab İlham Əliyev də çıxışlarının birində ölkə ərazisindəki badam bağlarının əksəriyyətinin Naxçıvan Muxtar Respublikasında olduğunu vurğulamış, badamçılığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişdir.

Həqiqətən də, bu da bir faktdır ki, Azərbaycan üzrə badam istehsalının 83 faizini muxtar respublikamız təşkil edir. Badamın məskəni olan Badamlı kəndi isə Naxçıvanda ən çox badamçılıqla məşğul olan kənddir.

Elə bu düşüncələrlə maşınımızın kəndin girəcəyinə yaxınlaşdığını görürük. Qarşımızda heç də özünü payıza təslim etmək "fikri" olmayan bir təbiət mənzərəsi canlanır. Bu arada vurğulayaq ki, Badamlı Şahbuz rayonunun su sarıdan heç bir vaxt korluğu olmayan kəndlərindəndir. Su həyat, bitki aləminin əsas qidası olduğundan, təbii ki, o olan yerdə yaşıl çox gec öz yerini sarı rəngə verər. Hələ kənd mərkəzinə çatmamış, yol kənarında belə bağlardan birinə – 6 hektarlıq ərazini əhatə edən badam bağına daxil olanda ağacların kölgəsində yaşları 70-dən artıq olan, bir-biri ilə şirin söhbət edən iki kənd sakini ilə qarşılaşırıq. Onlara yaxınlaşanadək yazda badam ağaclarının çiçəklərini müzakirə etdiklərini eşidirik. Salam verib tanış olur və söhbətlərinə qoşuluruq. Onlardan biri – Dostəli Məmmədov bu bağın sahibidir. Digəri isə illərdir, badamçılıqla məşğul olan İsa əmidir. İsa əmi deyir ki, evinin həyətində və pay torpağında 70-dən artıq badam ağacı var. İl yaxşı gələndə onlardan 500-800, hətta 1000 kiloqram məhsul götürür. Ötən payızda isə 1000 ədəd badam tingi yetişdirib. Söyləyir ki, gələn payız onları əkəcək ki, yazadək yerlərini tutsunlar. Söhbət yenə də qayıdır yazda badamın çiçəklərinə. İsa əmi: – Ötən yaz çiçəyə baxan kimi dedim ki, Allah, bu məhsulu yığıb qurtarmaq olacaq? – söyləyir. Dostəli əmi onun sözünü təsdiqləyərək deyir: – Şükür, az məhsul toplamadıq il. Kənddə ən az badam ağacı olan ev ildə 100-200 kiloqram məhsul götürür.

Ağsaqqallarla kəndin adı barədə də söhbət edirik. İsa əmi bizdən xeyli aralıda olan böyük badam ağaclarını göstərib deyir ki, mənim 72 yaşım var, atam da 95 yaşında rəhmətə gedib. O deyirdi ki, gözümü açıb, bu badamları burada görmüşəm. Deyirlər badam ağacı 100 ildən çox yaşayır. Budur, bəlkə də, 200 yaşı var. Qaldı, qızım, sənin sualına, deyim ki, lap qədimlərdə bu kəndin dağı, dərəsi tamamilə badamça kolları olub. Elə indi də (o, əlini dağlara tərəf uzadır) dağlar badamçaynan doludur. Badamın əcdadı badamçadır. Burada yaşayış olandan sonra insanlar həmin badamçalara calaq vurmaqla bu yabanı bitkini mədəniləşdirib artırıblar, kəndin adı da Badamlı olub. Buradakı əvəzsiz və qiymətli su da sonralar kəndin adı ilə bağlı "Badamlı" adlandırılıb.



Bir azdan kənd mərkəzinə doğru irəliləyirik. Yolboyu həyətlərdən "boylanan", hətta kənddə ötən illərdə tikilmiş məktəb binasının, kənd və ticarət mərkəzlərinin həyətyanı sahələrində ucalan badam ağaclarının öz yüklərini yerə qoyandan sonra bir qədər də şux görünüşləri, xəfif küləkdən titrəyən yarpaqları adamda belə bir təəssürat yaradır ki, onlara gözoxşarlığını verən bu yerin torpağı, havası, suyudur. Çünki badamın hər yeri özünə məskən seçməməsi onun əsas spesifik xüsusiyyətlərindəndir. Elə düşündüklərimizi bir azdan görüşüb söhbət etdiyimiz 40 il kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən, hazırda isə təqaüddə olan Süleyman Rzazadə də təsdiq edir. O deyir ki, Şada kəndi buradan 7 kilometr aralıdadır, Ayrınc kəndi isə (əli ilə göstərir) o dağın arxasındadır, 3 kilometr aralıda. Gəlin 3 badam tingini bir gündə bu kəndlərə əkək və bir ildən sonra baxaq. Görəcəksiniz ki, Şadada və Ayrıncda əkdiklərimiz bir az böyüyüblər. Bu kənddəki tingi isə gördükdə gözlərinizə inanmayacaqsınız ki, onlarla bir gündə əkilib. Badam bu iqlimi, havanı, suyu, torpağı sevir.

Süleyman müəllimin ötən illərdə kənddəki Zillan massivində kömür tapıldığını, kənd ağsaqqallarının bunun badam ağacının kömürü olduğunu söyləmələrini vurğulaması kəndin yaşının uzaq keçmişə söykəndiyini təsdiqləyən faktdır. Soruşanda ki, bəs bu kömürü necə tanıdınız, cavab belə oldu:

*Ocaqda alışan palıdmı, qozmu,*
*Çırtıltıdan duyub, közdən bilərsən.*

Süleyman müəllim onu da çox inamla deyir ki, iki ocaq qalansın, biri qaraağacla, biri badamça ilə, közünə baxaq, deyək ki, bunlardan hansı hansıdır. Çünki badamça həm də çox oduncaqlıdır.

Müsahibim kənddə badamın 8-12 növü olduğunu deyir. Onlardan buta, daş, kətankövnək, püstə, acı, dənə badamdan söhbət açır. Deyir ki, buta badamın quruluşu eynilə butanı xatırladır. Kətankövnək nə püstə kimi yumşaq, nə də daş badam kimi sərtdir. Daş badam ən yaxşı badam növüdür, çünki onun məhsulunu bir neçə il saxlasan da, xarab olmur. Lakin püstə badam qalanda qurdlanır. Odur ki, onu tez istifadə etmək lazımdır. Acı badamın tərkibində amiqdalin qlikozidinin olması ləpəyə acı dad və özünəməxsus ətir verir. Badamın bu növündən xalq təbabətində şəkər xəstəliyinin dərmanı kimi istifadə olunur.

Ümumiyyətlə, badam zəngin tərkibə malik, ləpələri doymamış yağ turşuları və bitki mənşəli zülalların təbii mənbəyidir. Tərkibindəki zülallar orqanizm üçün vacib, əvəzolunmayan amin turşuları ilə zəngindir. Badam ləpəsində sümüklərin inkişafı və möhkəmlənməsi üçün faydalı olan bir sıra mineral, vitamin və fermentlər, xüsusilə kalsium, manqan, fosfor, maqneziumun miqdarı daha çoxdur. Şirin badam xalq təbabətində qanazlığı, yuxusuzluq, miqren və şəkərli diabet kimi xəstəliklər zamanı istifadə edilir.

Badam qaraciyərin və dalağın işini yaxşılaşdırır, yüngül ödqovucu təsir göstərir, həzmi və iştahanı normallaşdırmaq, yumşaldıcı təsirə malikdir. Tərkibindəki minerallar sayəsində dərinin su-lipid balansını təmin edərək onu nəmləndirir, yumşaldır və hüceyrələri yeniləyir. Badamı qiymətli edən onun tərkibində yüksək miqdarda olan yağlardır. Acı badamda 45, şirin badamda isə 62 faiz yağ olur.

Kənddə onlarla ailə badam istehsalı ilə öz təsərrüfatlarını qurub. Bu, əsasən, torpaq islahatından sonra olub. Kəndlilərə verilən pay torpaqlarında onların badam ağacı əkmələri bu təsərrüfatların yaradılmasına səbəb olub. Ailəliklə istər həyətində, istərsə də pay torpağında badamçılıqla məşğul olanlar onu bazara çıxarmaqla hər il xeyli gəlir əldə edirlər. Bu barədə 300 badam ağacı olan kənd sakini Əmrah Abbasov deyir: – Badamçılıq gəlirli sahədir. Onun ləpəsi bazarda yay-qış dəyişməyən qiymətədir. Becərilməsi isə çox asandır. Mövsümdə 2-3 dəfə suvarmaq kifayət edir. Bir az yığmaq çətindir, amma asan iş yoxdur ki. Gərək əziyyət çəkəsən ki, nəyinsə sahibi olasan.

Afət Məmmədov isə övladları və əmisi oğlu ilə birlikdə kəndin "Yüz putun" deyilən yerində icarəyə götürdüyü 7 hektarlıq ərazidə yeni badam bağı salıb, burada 4500-dək ting əkib-becərir. Bir-iki ilə ağaclar tam bara çatacaq.

77 yaşlı Zinyət nənənin qapısını döyüb gəlişimizin məqsədini bildirəndə söhbətə kənddə zaman-zaman badamla bağlı yaranan bayatılarla başladı:

*Əzizinəm, badam göz,*
*Şirin dildə şirin söz,*
*Acı danışmaz ki, heç,*
*Püstə dodaq, badam göz.*

*Əzizim, kətan köynək,*
*Al mənə kətan köynək,*
*Badamdan da pay gətir,*
*O da ki kətan köynək.*

Üç qız anası olan Zinyət nənə deyir ki, qızlarıma bir iş tapşıranda bu bayatılarla onları oxşayırdım ki, onu ürəyimcə etsinlər. O, badam ağaclarının gəlirindən də ağızdolusu danışaraq deyir ki, üç qız köçürmüşəm, üçünün də cehizini həyətimin badamını satmaqla almışam. Onu bazara da çıxarmışıq, qapımızın ağzındaca bir yerdən də satmışıq. Badam bizim ruzi mənbəyimizdir.

Zinyət nənə kənddəki inanclarla bağlı deyir ki, burada acı badam öskürəyin dərmanı hesab olunur. Onu qurudub üyüdürsən, balla qarışdırıb qaranlıq bir yerdə qırx gün saxlayırsan. Öskürən adam səhərlər acqarına ondan bir çay qaşığı istifadə edir, bir həftəyə onda öskürəkdən əsər-əlamət qalmır. O, üyüdülmüş acı badamı süddə bişirib yeməklə də soyuqdəymənin bədəndən tez çıxmasını söyləyir. Zinyət nənə belə bir məsləhət də verir ki, dava-dərmandan yox, təbii nemətlərdən istifadə etməyə çalışın ki, sağlamlığınız əldən getməsin.

Kənd sakini, həm də kənd mədəniyyət evinin müdiri Azadə Rüstəmova badamla bağlı yaranan haxıştalardan bir neçəsini söyləyərək deyir ki, kəndimizdə elə bir toy olmaz ki, xınayaxdı mərasimlərində bunlar deyilməsin:

*Xonçada badama bax, haxışta*
*Burdakı adama bax, haxışta*
*Qardaşım bir qız sevib, haxışta*
*Gözləri badama bax, haxışta*

*Ay gözləri badamı, haxışta*
*Öldürürsən adamı, haxışta*
*Gəl alım qardaşıma, haxışta*
*Allam sənin qadanı, haxışta*

Azadə xanım badamla bağlı daha maraqlı inancdan söhbət açır: – Bizim toylarımızda xonçaların bir neçəsi badamdan tutular. Həm qabıqlısından, həm də içindən. Kənddə yaranan inanca görə qız-gəlin getdiyi evə hökmən bir böyük xonça qabıqlı badam aparmalıdır. Belə deyirlər ki, xonçadakı badamın sayı qədər il ruzili, bərəkətli keçər. Bu ruzinin ardınca da ruzi gələr.

Müsahibim badamın məişətdə istifadəsindən də danışır. Deyir ki, bayram süfrələrimizin yaraşığıdır badam. Həm çərəz kimi, həm də şirniyyatların tərkibində. Badambura biz qadınların ən çox bişirdiyi şirniyyatlardan birinə çevrilib. Çünki bu, badamdan hazırlanır, o da ki bizdə boldur. Novruz bayramında şəkərburanı, paxlavanı da badamla bişiririk. Cəvizdən, fındıqdan fərqli bir dadı vardır badamın. Tortların hazırlanmasında, bəzədilməsində də badamdan çox istifadə edirik.



Barverən 100 illik badam ağacı

Kəndin mərkəzi ilə addımlayarkən burada qarşılaşdığımız quruculuq töhfələri, abadlaşdırılaraq gündən-günə daha yaraşıqlı görünən bağ-bağatlı evlər bu yaşayış məntəqəsinin xoş günlərindən xəbər verir. Kənd icra nümayəndəsi Əjdər müəllim deyir ki, burada elə bir ev yoxdur ki, həyətində badam ağacı olmasın. Kənddə 185 evin, bu evlərin həyətlərində həm cavan, həm ortayaşlı, həm də yaşı 100-dən çox olan badam ağaclarının olduğunu, kənd camaatının isə xeyrini görüb ildən-ilə bu sahəni genişləndirdiklərini nəzərə alsaq, bu kənd badamçılığın inkişaf etdirilməsi sahəsində Azərbaycanın digər bölgələrinə nümunə gücündədir.

*Son söz olaraq onu da deyək ki, bir zamanlar kəndin ərazisi olan Badamlı qəsəbəsində hazırda "Badamlı" mineral sular zavodunun tikilməsi bu kəndin badamının, bir də "Badamlı"sının şöhrətini daha da artıracaq.*

**Mətanət MƏMMƏDOVA**

Yeni nəşrlər

## "Naxçıvan" jurnalının növbəti sayı çapdan çıxıb

*"Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bu günlərdə növbəti 37-ci sayı çapdan çıxıb.*

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan jurnalın bu nömrəsinin ilk səhifələrində Azərbaycan Prezidentinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin yubileyin Naxçıvanda keçirilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi ilə bağlı sərəncamları yer alıb.

"Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti tədqiqatlarda", "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan arxiv sənədlərində" bölmələrində Şərqin ilk demokratik respublikasının tarixi, onun siyasi fəaliyyəti, dövlətçilik prinsipləri haqqında geniş məlumat verilir.




"Naxçıvan 1918-1920-ci illərdə" bölməsində isə həmin illərdə Naxçıvan və Türkiyənin Anadolu hissəsində yaradılan Araz-Türk Respublikası və Naxçıvanın həmin illərdəki ictimai-siyasi vəziyyəti öz əksini tapıb.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr edilən jurnal geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Regional İnformasiya Mərkəzində Musiqi terapiyası bölməsi yaradılıb

*Musiqi insanın ruhuna, daxili aləminə o qədər yaxın bir məfhumdur ki, o, depressiyadan tutmuş xroniki ağrılara, yüksək təzyiqdən tutmuş sinir sistemi ilə bağlı yaranmış problemlərə qədər bütün xəstəliklərin müalicə və reabilitasiyasında mühüm vasitələrdən biri kimi tətbiq olunur. Musiqi, psixologiya, tibb və pedaqogikanın birləşməsinin nəticəsi olan bu terapiya növü bu gün dünyanın hər yerində psixi xəstəliklərin müalicəsində istifadə edilir.*

Bu müalicə metodu tam tibbi üsul deyil, bir növ psixoterapiyadır. Musiqi terapiyası zamanı, əsasən, instrumental musiqiyə üstünlük verilir. Hazırda bu sahədə geniş informasiya infrastrukturu yaradılıb. Muxtar respublikamızda da musiqi terapiyasına maraq artır. Belə ki, sağlamlıq imkanları məhdud şəxslərin tədrisi və reabilitasiyası məqsədilə müxtəlif sosial xidmətlər göstərən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün Musiqi terapiyası bölməsi yaradılıb.



Yeni tədris ilindən etibarən fəaliyyətə başlayan həmin bölmədə autizm, daun sindromu və serebral iflicdən əziyyət çəkən uşaqların diqqət və hafizələri musiqi terapiya sayəsində inkişaf etdirilir. Buradakı yeni terapiya otağı müasir avadanlıqlar, metodik vəsaitlər və musiqi alətləri ilə təmin edilib. Hazırda bölmədə keçirilən məşğələlərə 11 sağlamlıq imkanları məhdud uşaq cəlb olunub. Mərkəzdə həftənin 5 günü fərdi və qrup şəklində dərslər keçilir. Musiqi terapiyasını tədris edən Firaqə İlyasova Ukraynada Olena Tararinanın təşkil etdiyi ixtisasartırma kursunda iştirak edib. Bizimlə söhbətindən müəllim musiqi terapiyasının uşaqların sərbəstliyinə, diqqətinə, inkişafına, yaddaşına müsbət təsirlərindən danışaraq qeyd etdi ki, yalnız dinləmək deyil, ifa etmək, bəstələmək, musiqili dialoq qurmaq və sair texnikalar da bu müalicə metodunda müsbət nəticələrin əldə olunmasında effektiv üsullardandır.

Qeyd etmək lazımdır ki, 2013-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Defektoloji bölmədə Psixoloji dəstək xidməti, Əmək terapiyası kimi şöbələr də fəaliyyət göstərir. Burada əsas məqsəd muxtar respublikada yaşayan, zehni və nitq inkişafının ləngiməsi olan uşaqlarda ünsiyyət, daxili azadlıq, özünütanıma vərdişlərini aşılamaqdır. Nəticədə, həmin uşaqlar rəsm çəkməklə, müxtəlif əl işləri, musiqi ilə məşğul olmaqla, vizual dünyanı dərk edir, qavrama bacarıqlarını daha da inkişaf etdirirlər.

**Aygün BAĞIROVA**

*Muxtar respublikada mədəni-kütləvi tədbirlərin əhatə dairəsi genişləndirilmişdir. 2018-ci ilin ötən 9 ayında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” devizi altında 2394 tədbir keçirilmiş, əlamətdar və tarixi günlərlə bağlı konsert, dəyirmi masa və konfranslar təşkil edilmiş, filmlər göstərilmiş, sərgilər açılmışdır.*

## Muzeyləri 435 min tamaşaçı ziyarət edib

Hesabat dövründə muzeyləri 139 mindən çoxu əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 435 min tamaşaçı ziyarət etmişdir. Həmçinin bu dövrdə muzeylərə 1065 yeni eksponat verilmiş, muzeylərlə təhsil müəssisələri arasında 7 distant və 224 açıq dərs keçilmiş, əlamətdar günlərlə bağlı 79 sərgi açılmışdır.

Muxtar respublikanın kitabxanalarında oxucu-kitabxana əlaqələrinin düzgün qurulması diqqətdə saxlanılmış, ötən 9 ayda 799 mədəni-kütləvi tədbir keçirilmiş, 331 sərgi açılmış, “Oxunması zəruri olan kitablar”la bağlı 147 müzakirə təşkil olunmuşdur. Kitabxanalara yeni oxucu gəlişi 1785, müraciət edən oxucuların sayı 100 min 964 nəfər olmuş, elektron kitabxanadan 4724 oxucu istifadə etmişdir.

2017-2018-ci tədris ilində uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini 602 şagird bitirmişdir. Yeni tədris ilində məktəblərə 990 şagird qəbul olunmuş, istedadlı tələbə və şagirdlərin konsertlərinin təşkili diqqətdə saxlanılmışdır.

Ötən dövrdə teatr kollektivləri tərəfindən ictimaiyyətə 20 tamaşa təqdim olunmuş, Naxçıvan şəhərində və rayonlarda 40-a yaxın bədii və sənədli film nümayiş etdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

## Şahmat üzrə muxtar respublika birinciliyinə start verilib



*Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının kuboku uğrunda muxtar respublika birinciliyinə start verilib.*

Muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə Şahmat Federasiyasının birgə təşkil etdiyi birincilikdə şəhər və rayonların, ümumilikdə, 8 komandası mübarizə aparır. Birinciliyin reqlamentinə əsasən hər komandanın heyətində 4 oğlan və 2 qız iştirak edir. Oğlanlar 8, 10, 12 və 14 yaş, qızlar isə 10 və 14 yaş qruplarında ağ-qara taxtada kimin güclü olduğunu nümayiş etdirməyə çalışırlar. Xal hesablamalarına gəlincə, hər qələbəyə 2, heç-heçəyə isə 1 xal veriləcək. Sonda hər hansı komandanın xal hesabları bərabər olarsa, o zaman fərdi yarışlarda qazanılan xallar hesablanacaq.

Qeyd edək ki, birinciliyə ayın 12-də yekun vurulacaq və qalib komandalar federasiya tərəfindən diplom və kubokla mükafatlandırılacaqlar.

## Ekstremal yürüşün qalibləri müəyyənləşib

*18 oktyabr – Müstəqillik Günü münasibətilə tələbələr arasında ekstremal yürüş üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.*

Uzunoba Su Anbarı ətrafında təşkil olunan birincilikdə 100-ə yaxın idmançı mübarizə aparıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi yarışda oğlanlar 3, qızlar isə 2 kilometr məsafəni qət etməyə çalışıblar.

Yarışın yekun nəticəsinə əsasən oğlanlar arasında “Naxçıvan” Universitetinin tələbəsi Abbas Babayev finiş xəttinə hamıdan tez çatıb. Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri – Əkbər Mehdiyev və Fərid



Qasımov ikinci və üçüncü olublar.

Qızların mübarizəsində isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Gülayə Cəfərova qalib adını qazanıb. İlkanə Babayeva (Naxçıvan Dövlət Texniki Kolleci) və Dünya Əmrahlı (Naxçıvan Tibb Kolleci) digər pillələrdə qərarlaşıblar.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

### Jurnalistin qeydləri

## Qənaətcillik ən mühüm insani dəyərdir

*Məhəlləmizdəki məişət tullantıları üçün qoyulmuş dəmir qutuların yanından keçərkən bəzən həmin qutuların dəstəklərindən asılmış içərisində çörək parçaları olan torbaları gördükcə məni təəssüf hissi bürüyür. Deyirəm, görəsən, nə tez unuduldu çörək mağazalarının qarşısındakı uzun növbələr, defisit mallar uğrunda mübarizələr, bazarlarda boş qalan piştaxtalar?.. Görünür ki, bu gün əhatə olunduğumuz dinclik, bol nemətlərlə dolu firavan həyat aclıqla imtahana çəkildiyimiz günləri çoxdan bizə unutdurub. Və yaxud bir zamanlar iki saatdan bir fasilə ilə verilən elektrik enerjisindən indi rahatlıqla istifadə edir, bəzən böyük israfçılıqlara da yol veririk. Doğrudur, istifadə etdiyimiz enerjinin, çörəyin də pulunu ödəyirik. Ancaq, son nəticədə, izafi xərclənən pula da qənaət etmək olar axı. Belə misalları çox çəkmək olar, lakin əsas məqsədimiz gündəlik həyatımızda israfçılığı aradan qaldırmaqdır.*

Müasir dövrdə dünyada istehlak mallarının növ və çeşidlərinin artması və bu məhsullarla bağlı məlumatların müxtəlif informasiya vasitələri ilə daha sürətli yayılması, hər birimiz üçün əlçatan olması böyük bir istehlak mədəniyyətinin formalaşmasına səbəb olub. Tək ölkəmizdə deyil, ümumiyyətlə, bütün dünyada istehlakçıların əvvəlki illərlə müqayisədə ehtiyaclarının çoxalması və bunun da nəticəsində daha çox və daha yaxşı məhsula yiyələnmək istəyi sanki insanları xoşbəxt edir. Aparılan sosial araşdırmalar da göstərir ki, insanlar yalnız keyfiyyətli, hamı tərəfindən bəyənilən məhsullara sahib olduqda özlərini daha çox xoşbəxt hiss edirlər. Bu xoşbəxtlik qısa sürsə də, hətta ehtiyac olmasa belə, bundan sonra daha yaxşısını əldə etməyə çalışırlar. Beləliklə, insanlar zaman keçdikcə bu psixologiyadan asılı hala gəlir və “onda var, məndə niyə olmasın?” məntiqi ilə inkişaf edən psixoloji problemlərə düçar olurlar. Sonda isə bu düşüncə qazanılan pulun səmərəsiz və mənasız yerə sərf edilməsinə, bədxərclik və ya israfçılığa gətirib çıxarır. Çoxlarımız düşünürük ki, sahib olduğumuz vəsaiti ehtiyac olmasa da, izafi yerlərə xərclədikcə, daha artığını əldə etməyə çalışacağıq, eyni zamanda bu vərdişimizlə heç kəsə yaxşı örnək olmayacağıq.

Qeyd edək ki, israfçılıq nəinki insanın özünə, eləcə də cəmiyyətə, hətta ölkəyə də çox böyük zərər verə bilər. İsraf edən adamlar əlindəki maddi imkanlarını davamlı olaraq xərcləməyə həvəsli olurlar. Bu cür insanlar qazandıqları vəsaiti zəruri istehlak mallarına deyil, sırf başqalarından seçilməsinlər deyə, ehtiyac duymadıqları geyimlərə, bahalı əşyalara və bir çox lazımsız məhsullara xərcləyirlər. Bəzi hallarda onlar üçün alınacaq məhsulun keyfiyyəti yox, xarici görünüşü və cəmiyyət içərisində təsiri böyük rol oynayır. Təbii ki, belə “nümunə” aylıq gəliri bu reallığa cavab verməyən insanlar arasında daha çox müzakirə mövzusu olur. Kredit götürmək adətkarlığı olan insanlarda isə bu kimi reallıqlar gəlir və xərc planlaması sistemini alt-üst edir və nəticədə, illərlə ödənilən kreditlərin öhdəsindən gələ bilmirlər.

İsraf qadağası və qənaət hökmü yalnız ehtiyacı olanlara aid deyil, dar günə tədarük xarakteri daşımır. Bu, Tanrının səxavətlə bəxş etdiyi nemətləri acgözlüklə mənimsəməmək, yalnız özünə aid etməmək, “təki mən tox olum” kompleksindən çıxmaq, bütün insanların ilahi nemətlərdən istifadə bərabərliyini qəbul etməkdir. Bununla yanaşı, “İsraf yoxsulluğa, qənaət isə var-dövlətə səbəb olar”, – deyiblər. Xərclədiyini bilməyənin yoxsul qalması, təbii ki, gözləniləndir. Çünki insan tamahının son həddi yoxdur. Ona nəzarət etməyəni, məhdudiyyət qoymayanı bədbəxtlik gözləyir.

Həyatda xoşbəxt yaşamaq hər insanın arzusudur. Lakin xoşbəxtliyin də tam maddiyyat üzərində qurulmaması təcrübədən çoxdan keçib. Bəzən insanlar həyatda maddi hədəflərinə çatmaq üçün əllərindən gələni edirlər. Lakin onlar unudurlar ki, bu maddiyyata çatmaq üçün başqa bir üsul da var: qənaətcil olmaq. Qənaət, ilk növbədə, bir insani dəyərdir. Qənaət – qane olmaq, lazım olan hədlə kifayətlənmək, Allahın nemətlərindən səmərəli və məqsədyönlü şəkildə istifadə etməkdir. Əgər insan həyatda əldə etdiklərinə qənaət etsə və onunla kifayətlənsə, çox sayda çətinliyi aradan qoya bilər. Nigarançılıqdan, stresdən uzaq olar.

Dinimizin qadağan etdiyi xüsusiyyətlərdən biri də fərd və toplumu yoxsulluğa, fəlakətə sürükləyən, cəmiyyəti yıxan israfçılıq əməlidir. İnsanlığın rifahını və səadətini yüksək tutan dinimiz israf etməyi qadağan etmiş, insanlara qənaətcil olmağı, hər nemətdən qədərində istifadə etməyi əmr etmişdir. Uca Yaradanın bizə bəxş etdiyi maddi imkanların israf edilməsi bir çox yuvanın dağılmasına, ailələrin, toplumun və ölkənin iqtisadi cəhətdən zəifləməsinə səbəb olur. İnsanın həyatda rahat yaşaması və dolanması üçün iki cəhət zəruridir. Bunlardan biri qazanmaq, digəri də əldə olanı yerli-yerində və ölçülü şəkildə xərcləməkdir. Bunlardan biri əskik olarsa, yaşamaq çətinləşər, dinclik yox olar.

Atılan çörək parçaları, boşa xərclənən zaman, artıq sərf olunan enerji, gərəksiz yerə axıdılan su – bunların hər biri israfdır. Gənclərin Vətəni, milləti üçün sərf etməsi lazım olan zamanlarını və bol enerjilərini saatlarla sosial şəbəkələrdə bada verməsi də israfdan başqa bir şey deyil. Bilik öyrənmək, ailəyə və cəmiyyətə faydalı işlər görmək əvəzinə bir daha geri qaytarılması mümkün olmayan zamanı mübahisəyə və davadalaşa, qeybətə xərcləmək də israfdır. Dəyəri bilinməyən zaman və faydasız işlərə sərf olunan ömrün özü də israfdır. Elə isə imkanlarımızı, qazandıqlarımızı, sağlamlığımızı, sərvətimizi ölçülü şəkildə istifadə etməli, ruhumuzu bürüyən şöhrətpərəstlikdən uzaq durmalı, maddi və mənəvi israfın bizi başqalarına möhtac hala gətirə biləcəyini unutmamalıyıq.

Bu gün dünyanın bir çox ölkələrində aclıqdan, soyuqdan, ehtiyac üzündən dünyasını dəyişən milyonlarla insan var. Yoxsulluq üzündən övladlarına bir tikə yavan çörək tapmaq üçün zibillikləri axtaran analar, təhsildən məhrum, məktəb yaşlarından işləməli olan uşaqlar, müalicəyə pul tapmadıqlarına görə övladlarını torpağa tapşıran atalar var. Bir çox ölkələrdə maddi sıxıntının yaratdığı həyəcan, stress, iztirab üzündən intihar edən insanlar da az deyil. Lakin bu gün hamımız əminliklə deyə bilərik ki, ölkəmizdə eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada bu problemlərə rast gəlinmir. Doğma diyarımız ötən illər ərzində təhlükəsiz məkan kimi özünü çoxdan təsdiq edib. Günü-gündən çiçəklənən yurdumuzda qədim diyarımızın sakinlərinin bütün problemləri öz həllini tapır, onların məişət şəraitinin yaxşılaşdırılması üçün hərtərəfli şərait yaradılır. İnanırıq ki, muxtar respublika sakinləri də məhsul bolluğunu təmin etmək üçün yaradılan mövcud şəraitdən səmərəli istifadə edərək, qədim diyarımıza, nəticə etibarilə, ölkə iqtisadiyyatına öz töhfələrini verəcəklər.

**✍ Gülcamal TAHİROVA**

### İtmişdir

Əliyev Hafiz Əli oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Cəlilkənd sakini Cəfərov Müşfiq Əjdər oğlunun adına olan JN-121$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 740